# SÖNMƏYƏN YURDUN ÜSTÜNDƏ TÜTƏN İLK OCAQ...

## Əli Rza Xələfli haqqında düşüncələr...



*(Əvvəli ötən sayımızda)*

Birinci başlamaq istəyirəm Göydəmir Ürgədən. Qəlibinə sığmayan tərzdə faciələşdirilmişdir, bu da yaxşıdır. Çünki, uşaq sarsıntısı ən azı faciəyə bərabərdir.

Bu povest əsl Türk povestidir. Türklərin və dünyanın Türkləri tanıması üçün oxuması lazım olan bir povestdir. Povest özü adamı ovsunlayır.

Küləyin Boz Qurda mane olması, anasının Boz Qurdun ruhuna qarışması...

Kitabda elə fəlsəfi sözlər var ki, bunu kamillər bilə bilər, yalnız kamillər. Kamil şəxsiyyətlərdən biri də Əli Rza müəllimdir. Onun ayrıca yazılmamış kamillik dastanı var. Yalan olmasın, birnəfəsə nə dedisə, o kitablıq sözdür. Necə deyərlər, "Bir Quranlıq Söz". Quran heç zaman başınız üstündən əskik olmasın, Ustad!

Əli Rza Ustad o qədər enerjilidir ki... 23 ilə 43 kitab sığdırıb. Bir neçəsi birbiri ilə yaşıddır, eyni ildə çap edilib. Bu da yazıçının 12 ayda neçə-neçə kitablara sərf olunan, bitməyən, lakin haldan-hala keçən enerjisindən xəbər verir. Çünki, enerji bitmir, haldan-hala keçir. Enerji tükənmir! İnsan bir ildə min kitab yazmağa, min bir kitab oxumağa qadirdir, təki enerjisi olsun.

Əli Rza Xələflinin "Üçüncü dünyanın qorxusu" romanı var. Burada əsas qəhrəman Kişi və Qadındır, onlar sevmək istəmirlər, lakin sevirlər və düz edib bəyənmədikləri "birinci dünyadan" çıxmaq istəyirlər. Lakin, "üçüncü dünyaya" getmək üçün nə cür zəhmətlərə qatlaşdıqları halda körpüdə fikirlərini dəyişdirirlər. Çünki, psixoloji əziyyət çəkirlər-sevgi əziyyəti...

Mən Ustadın Şəhriyara nəzirə olaraq (bəlkə də nəzirə deyil, ancaq mənim üçün nəzirədir) yazdığı "Bir Xələfli Var İmiş"poemasını oxumadım, lakin, təhlilini oxuduğum üçün çoxlu biliyə vardım. Adamın qəlb tellərinə toxunan, ürəyini sızladan, çıxarıb oda atan bilirsinizmi nə oldu? Əli Rza Xələflinin Yurdu Xələfli əlindən alınan vaxtda, Yurdu Azərbaycan var, lakin, Şəhriyar yurdunu görmür. Cənubi Azərbaycan onun üçün farslaşdırılıb. Ustad özünü Vətənində hiss etmir. Onun ağrısı ona görə də daha çox ürək qovurandır.

Şəhriyara min alqış düşür, mininci alqış Fars Azərbaycanında dilini unutmaması, Heydər Babasını unutmamasıdır. Əli Rza Xələfliyə də min alqış düşür, mininci alqış ona görə düşür ki, bəzi vətəndaşlar vətənə daş atır, lakin, Xələfli heç vaxt Qarabağını unutmur, Qarabağ üçün canını fəda etməyə hazırdır. Bunu təkcə mən demirəm.

XUDA da sizə afərin deyir, ustad!

Həkim Qənini 7 yaşımdan tanıyıram. Uzunömürlüdür, lakin, əsərləri haqqında tam məlumatım yoxdur.

İnşəAllah onun da bir kitabını oxuyub tamam-kamal olar və bir publisistik yazı da Həkim Qəniyə yazaram.

Bu bəndlə mən düşündüm və "Xuda Sizə Afərin deyir" cümləsini yoğurub bişirdim:

Ey həkim, Qənisən, dünya bazardı,  
Dizindən aşağı tamah ümmanı.  
Behişti-əlanı sənə yazardı,  
Qalsaydı Tanrının bircə gümanı.

"Əli Rza Xələfli-65" kitabında məqalələr şeirlər təzə deyil. Məhəbbət Nizamın bu şeiri 2009-cu ildə, hələ "Əli Rza Xələfli-60" çap edilməyəndə yazılıb(bu şeirdə Əli Rza ustadın kitab adları çoxluq təşkil edir):

"Üçüncü dünyanın qorxusu" başda,  
"Yaddaşa aparan yollar" təlaşda,  
Düşmən Qarabağda gəzirsə qaşda,  
Belə gündə yatmaz heç ər, Xələfli

Bu bəndi əzbərləmişəm:

Məhəbbətəm, anla məni, duy məni,  
Zurna ki yox, oynadarmı züy məni,  
Tərifə tut, gecə-gündüz öy məni,  
Ay Xələfli, öyüləndə gələcəm.

2009

"Əli Rza Xələfli-65" kitabını bitirən kimi "Meyar" adlı kitabı ilə maraqlandım. İlk səhifələrində heyrət məni bürüdü. 15-ci səhifədəki şəkildəki kim idi?-Rəsulzadənin şair dediyi, tanınmayan, müəmma olan, İstiqlal sevdası üçün yanan şairlərdən ikincisi(birinci Əhməd Cavaddır, O, Dövlət Himnimizin müəllifidir), ƏMİN ABİD GÜLTƏKİNDİR!!! Çox sevindim və doğulduğum ildə çap edilmiş bu kitabın həmin səhifəsini az qala birnəfəsə oxudum. Mən bu məqaləyə öz fikrimi və "Azərbaycan İstiqlalına" adlı şeirimdən bir parçanı əlavə etmək istəyərdim:

Mən Əmin Abid Güntəkini Hüseyn Cavidlə qarşılaşdırıram. Hər ikisi Türkçülük və İstiqlaliyyət sevdalısıdırlar. Həmçinin Türkiyədə təhsil almışdırlar. Əmin Abid Güntəkin ölməz Füzulinin "Söhbətül-əsmar" əsərini ortaya çıxarmışdır. M.Ə.Rəsulzadənin 28 may 1953-cü ildə radioda söylədiyi nitqdə Əmin Abid Güntəkinin "Azərbaycan İstiqlalına" adlı şeirindən bir parça söyləmişdir. Mən də həmin şeirə qulaq asdım və eyniadlı şeirimi yazdım. Şeirdən bir parça nəzərinizə çatdırmaq istəyirəm:

Yaxşı deyib Gültəkin:  
"Yıxdıq yüksələn xaçı"  
Gəldi böyük istiqlal, ölkədə kəsdik yası.  
Dirçəldi millətimiz, güldü həm əhalimiz  
Federativ dövlətə, qalib gəldik onda biz.

Əli Rza Xələflini Mikayıl Müşfiqə bənzədirlər. Ancaq mən Əli Rza Xələflini heç kimə bənzətmirəm. Çünki hamı özü olmalıdır. Əli Rza Xələfli Mikayıl Müşfiqə bənzəmir, lakin onun yolunu davam edir. Mən Əli Rza Xələflidə Şəhriyar kimi həsrət, Müşfiq kimi sevgi, Əmin Abid kimi azadlıq odu və Hüseyn Kürdoğlu kimi söz əkinçiliyi görürəm. Ustadın mənə etdiyi bütün yaxşılıqlarına görə, mənə bağışladığı Xəzinə olan çoxlu sayda kitablarına görə dərin minnətdarlığımı bildirirəm.

66 ildir yanan Odun-ocağın işığının sönməz olmasını arzulayıram.

### III. Sönməyən Yurdun İlk Ocağı

1953-cü ilin sərt payızı idi. Xələflinin payızı bir ayrı cür olurdu. Xəzəllər yolu-irizi, əsasən də, meşəni basmışdı. Yarpaqlar öz baharını gözləyirdi. Sönməyən ermənilər yavaş-yavaş məkrlərinə davam edirdilər. Onlar öz yerlərindən Azərbaycan Türklərini qovurdular. Bununla belə növbəti dəfə də deportasiya hökm sürdü. Kim bilir, bəlkə də, Qarabağ erməniləri də Qarabağlıları Qarabağdan təmiz qovacaqdılar. O günü ermənilər gözləyirdi, Azərbaycanlılar isə fikirləşirdi, lakin, üzə demək istəmirdi. Adam can dostundan şübhə edərmi, əgər erməni can dostu idisə(o vaxt Sovetlər dönəmi idi, düşmən belə can dostu idi, puç olmaya layiq xəyallar hökm sürürdü).

Lakin, buna baxmayaraq, gələcəyi Dirilişin məkanı Diri də, Gordu Baba da hiss edirdi. Həmin zəmanədə, həmin dövrdə, lap elə həmin gündə gələcəyin Türkçüsü doğulacaqdı. Gələcəyin parlaq fikrlisi, ziyalısı, dəyərli şəxsiyyəti. Elə bir insan doğulacaqdı ki, Azərbaycanı puç olmaya layiq xəyallardan qoparacaq, Sönməyən Yurd olduğunu xatırladacaqdı. İnsanları qəflət yuxusundan ayıldacaqdı. Hər sahədə çalışacaqdı, mənalı və oxunaqlı əsərlər yazacaqdı.

Və həmin ziyalı dünyaya gəldi. Əli Rza Xələfli 1 oktyabr 1953-cü ildə Cəbrayılın Xələfli kəndində doğuldu.



**Sevindik NƏSİBOĞLU.**  
*Gənc yazar, Həqiqət Tarixi Araşdırmalar İctimai Birliyinin Gənc İstedad fəxri diplomçusu.*  
*23. 08. 2019*